2017-ci ilin yanvar-may aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 135176,8 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 126986,5 min ABŞ dollarını yaxud 93,9 faizini ixrac, 8190,3 min ABŞ dollarını yaxud 6,1 faizini idxal təşkil etmişdir.

İdxalın həcmi son bir il ərzində 46,2 faiz azalmış, ixracın həcmi isə 1,2 faiz artmışdır. Ümumilikdə bu dövr ərzində 118796,2 min Amerika Birləşmiş Ştatları dolları həcmində müsbət saldo yaranmışdır.